AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

P O L İ S   A K A D E M İ Y A S I

**Fakültə:** Əyani

**Kafedra:** **"DİO-nun inzibati fəaliyyəti"**

***Fənn:*** **"DİO-nun inzibati fəaliyyəti "**

# M Ü H A Z İ R Ə

***MÖVZU № 7.*** **"Şəhər, rayon polis orqanlarının təyinatı, hüquqi vəziyyəti və işinin təşkili."**


**Tərtib etdi:**
**"DİO-nun inzibati fəaliyyəti"**
**kafedrasının rəisi, polis polkovniki**
**V.Abışov**

**Mühazirəyə əlavə və dəyişiklər etmişdir:**
**kafedranın müəllimi, polis polkovnik-leytenantı, h.ü.f.d.**
**Ş.T.Şükürov**


Mühazirəyə edilmiş əlavə və dəyişiklər kafedra iclasında müzakirə olunmuş və təsdiq edilmişdir.
Protokol № _____, «_____» ____________ 2016-ci il

**Bakı - 2016**

***MÖVZU № 7.* "Şəhər, rayon polis orqanlarının təyinatı, hüquqi vəziyyəti və işinin təşkili."**

**P L A N:**

**Giriş:**

1. Şəhər, rayon polis orqanı-DIN-in vahid sisteminin tərkib hissəsi olan hüquq-mühafizə orqanı kimi.
2. Polis orqanına rəhbərlik.
3. Polis orqanlarının işinin təşkili əsasları.
4. Polis orqanının fəaliyyətinin təminatı.

**Nəticə:**

**Ə D Ə B İ Y Y A T:**


1. Azərbaycan Respublikasının Konstitusiyası (12 noyabr 1995-ci il).
2. Polis haqqında Azərbaycan Respublikasının Qanunu (28 oktyabr 1999-cu il).
3. Azərbaycan Respublikası DİN-in Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında AR Prezidentinin Fərmanı (30 iyun 2001-ci il).
4. Şəhər (rayon), nəqliyyatda polis orqanları haqqında Əsasnamə; Şəhər, rayon, nəqliyyatda polis orqanlarının işinin təşkili haqqında Təlimat; Şəhər, rayon, nəqliyyatda polis orqanlarının rəhbərliyi arasında nümunəvi vəzifə bölgüsü (DİN,13.VII.2009-cu il, № 390).
5. DİN-in struktur xidmətlərinə kuratorluğun müəyyənləşdirilməsi barədə (DİN,12.01.2009-cu.il, № 9).
6. AR DİN-in beynəlxalq əməkdaşlığının inkişaf Konsepsiyası (DİN,20.VIII.2007-ci il, № 445).
7. 2008-2010-cu illərdə AR DİN-in beynəlxalq əməkdaşlığının inkişaf Konsepsiyasının həyata keçirilməsinə dair Proqram (DİN,07.XII.2007-ci il, № 665).
8. www.mia.gov.az. Azərbaycan Respublikası DİN-in Mətbuat Xidmətinin Məlumatları. 2016-ci ilin mart ayı.
9. www.mia.gov.az. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin 15 oktyabr 2015-ci il tarixli Kollegiyası.
10. V.Abışov, A.İsmayılov, H.Eyvazov. DİO-nun inzibati fəaliyyəti. Ümumi hissə. 100 suala 100 cavab. Dərs vəsaiti. Qanun, 2005.
11. V.Abışov, H.Eyvazov. DİO-nun inzibati fəaliyyəti. Ümumi hissə. Sxemlərdə. Dərs vəsaiti. Bakı-Qanun-2006.
12. M.Qəfərov, V.Abışov, H.Eyvazov. Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları. Dərslik. Bakı-Qanun-2006.
13. Polis haqqında sənədlər toplusu. Bakı-Qanun-2006.
14. V.Abışov, H.Eyvazov. Daxili işlər orqanlarının inzibati fəaliyyəti. Ümumi hissə. Dərslik. Bakı,"Qanun" 2008, 728 səh.

15. V.Abışov, H.Eyvazov. Daxili işlər orqanlarının inzibati fəaliyyəti. Ümumi hissə. Qısa kurs. Dərs vəsaiti. Bakı, Qanun" 2008, 296 səh.
16. Tədris proqramı. Daxili işlər orqanlarının inzibati fəaliyyəti. Ümumi hissə. Bakı, Qanun" 2009.

# G İ R İ Ş

Azərbaycan polisinin yaranmasının 84-cü ildönümü münasibəti ilə keçirilən təntənəli mərasimdə ümummilli lider Heydər Əliyev öz çıxışında demişdir: "… polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir". Bütün bu göstərilənlər müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının müddəalarına əsaslanır.

Azərbaycan Respublikasında digər sahələrdə olduğu kimi Daxili İşlər Nazirliyində, polis orqanlarında böyük islahatlar keçirilir. "Polis haqqında" və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarının qəbul edilməsi DİN-in normativ aktlarının yenidən işlənməsini tələb etdi. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında 30 iyun 2001-ci il tarixli Respublika prezidentinin Fərmanı hüquqi islahatların bariz nümunələrindən biridir. Göstərilənlərin əsasında həm də şəhər, rayon polis orqanlarının fəaliyyətini tənzimləyən əsasnamələr qüvvəyə mindi.

*2015-ci il oktyabrın 16-da Daxili İşlər Nazirliyində "Şəhər, rayon polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işi"nin və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə"nin vəziyyətinə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.* Daxili işlər naziri, general-polkovnik Ramil Usubov Kollegiya iclasını açaraq müzakirəyə çıxarılan məsələlərin xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, vətəndaşların müraciətlərinə baxılmasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqət və nəzarətində olduğunu, məhz onun tapşırığına əsasən, son illər mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda mütəmadi olaraq vətəndaşların qəbulunu keçirdiklərini, onların problemlərini şəxsən dinlədiklərini vurğulayıb.

Bununla yanaşı, qeyd olunub ki, kriminogen duruma mənfi təsir göstərən amillərdən olan narkotik vasitələrin qanunsuz dövriyyəsi də müvafiq sahədə fəaliyyətin təşkilinə xüsusi diqqət, vəziyyətin daim nəzarətdə saxlanılmasını və adekvat tədbirlərin vaxtında müəyyən edilib icraya yönəldilməsini tələb edir.

Nazir son illər hər iki istiqamətdə işin daha səmərəli yerinə yetirildiyini, lakin uğurlarla yanaşı, ayrı-ayrı ərazi polis orqanlarının fəaliyyətində hələ də müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu xatırladıb.

Gündəlikdəki birinci məsələ ilə bağlı DİN Katibliyinin rəisi, polis general-mayoru Nüsrət Şirinov məruzə ilə çıxış edib. O deyib ki, ölkəmizdə hər bir şəxsin konstitusion hüquqlarının və qanuni mənafelərinin müdafiəsi sahəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinə uyğun olaraq, vətəndaşların müraciətlərinə baxılması və qəbulu daim ciddi nəzarətdə saxlanılıb, xüsusi həssaslıq və ardıcıllıqla yerinə yetirilib. Müvafiq sahədə idarəçilik fəaliyyətinin, icra intizamına nəzarət mexanizminin təkmilləşdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi işinə diqqət artırılıb.

Nazirliyin rəhbərliyi tərəfindən son bir il 9 ayda 6.412, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın bölgələri üzrə 4.223 vətəndaş qəbul olunub. Hər bir müraciətin mahiyyəti üzrə lazımi tədbirlər görülərək qaldırılan məsələlərin əksəriyyəti yerində həll olunub, əmlak mübahisələri və dəymiş ziyanın ödənilməsi məsələləri ilə bağlı hüquqi yardımlar göstərilib.

Eyni zamanda, Nazirliyin müvafiq Kollegiya Qərarının və göstərişinin icrası çərçivəsində şikayətləri doğuran səbəblərin və şəraitin aradan qaldırılması üzrə səmərəli tədbirlər həyata keçirilib. Bütün bunlarla əlaqədar ötən il 456 və carı ilin 9 ayında 295 vətəndaş Nazirliyə minnətdarlıq məktubları ünvanlayıb.

Şikayətlərin araşdırılmasının keyfiyyətinə diqqətin artırılması, qanunçuluğun pozulmasına qarşı təsirli ölçülərin götürülməsi fəaliyyətin aidiyyəti qanunların, fərman və sərəncamların tələblərinə uyğun daha effektli təşkilində əhəmiyyətli rol oynayıb.

Görülmüş bu və digər təşkilati-praktiki tədbirlərlə 2014-cü ildə vətəndaşlardan Nazirliyə daxil olmuş müraciətlərin sayı 4,3 faiz, şikayətlərin sayı 6,9 faiz, Azərbaycan Respublikası Prezidenti Administrasiyasına ünvanlanan müraciətlərin sayı 21 faiz azalıb. Qeyd edilməlidir ki, şikayətlərin araşdırılmasının birbaşa rayon polis orqanlarının rəislərinə həvalə edilməsi və nəticələrinin məruzə olunması tələbi ötən il daxil olan ümumi müraciətlərin dinamikasına müsbət təsir göstərib.

Carı ilin 9 ayında bilavasitə Nazirliyə daxil olan şikayətlərin sayı 9 faiz, o cümlədən təkrar şikayətlərin sayı 3 faiz, Azərbaycan Respublikası Prezidenti Administrasiyasından daxil olan şikayətlərin sayı 2,8 faiz azalıb.

Əvvəlki illərdə olduğu kimi, narkotiklərlə bağlı cinayətləri hazırlayan və törədən şəxslərin müəyyən edilib məsuliyyətə cəlb edilməsi hesabat dövründə də başlıca vəzifələrdən olub və müvafiq tədbirlər kriminogen durumun nəzarətdə saxlanılmasını, narkotiklərin ölkə ərazisində yayılması cəhdlərinin qabaqlanmasını şərtləndirib. 2015-ci ilin 9 ayında daxili işlər orqanları tərəfindən narkotiklərlə əlaqədar 2497 cinayət, o cümlədən satışı ilə bağlı 659 fakt müəyyən edilib, 115 nəfərdən ibarət 43 cinayətkar qrup zərərsizləşdirilib. Qanunsuz dövriyyədən ötən ilin müvafiq dövrü ilə müqayisədə 37,5 faiz və ya 200 kiloqram çox narkotik vasitə, o cümlədən 116,7 kq tiryək, 34,3 kq heroin, 15 kq həşiş, 547,2 kq marixuana, 18,4 kq sair vasitələr çıxarılıb. Eyni zamanda, 59,4 kq narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb.

Tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiyasının və yabanı halda yayılmasının profilaktikası yönümündə xüsusi əməliyyat planı üzrə keçirilmiş tədbirlərlə ümumi çəkisi 169 ton olan çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib. Nazirliyin müvafiq Kollegiya qərarına uyğun olaraq, son bir ilə yaxın müddətdə 75 şəhər, rayon polis orqanı tərəfindən orta, orta-ixtisas və ali təhsil müəssisələrində yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın gücləndirilməsi ilə bağlı 576 görüş təşkil olunub.

Daxili işlər naziri Ramil Usubov Azərbaycan Prezidenti cənab İlham Əliyevin sədrliyi iə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə

başçısının proqram xarakterli nitqində respublikamızda sabitliyin, əmin-amanlığın hökm sürdüyünü vurğulamasının qürurverici olduğunu, bu işdə onun rəhbərliyi ilə respublikanın hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının da danılmaz xidmətini diqqətə çatdırıb. Həmin iclasda dövlət başçısının prinsipial mövqeyini xatırladan nazir sahibkarlıq fəaliyyətinə müdaxilənin, vətəndaşlarla münasibətdə kobudluq, süründürməçilik və korrupsiya hallarının yolverilməzliyini, belə neqativ əməllər törədən əməkdaşlar və onların rəhbərliyi barədə ciddi intizam tənbehi tədbirlərinin görüləcəyini bir daha qeyd edib.

Qarşıdan dövlət əhəmiyyətli mühüm tədbirin-növbəti parlament seçkilərinin gəldiyini xatırladan cənab Ramil Usubov daxili işlər orqanlarının bu sahədə böyük təcrübəyə malik olduğunu, asayişin qorunması və təhlükəsizliyin təmini məsələlərində onların üzərinə qanunvericilikdən irəli gələn mühüm vəzifələr düşdüyünü, əvvəlki illərdə və anoloji tədbirlərdə olduğu kimi, hər bir əməkdaşın qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gələcəyinə əminliyini ifadə edib.

O, bir daha qeyd edib ki, bu gün daxili işlər orqanlarının qarşısında duran əsas vəzifə dövlətimizin tərəqqisi və qüdrətlənməsi, xalqımızın sosial rifahının yüksəldilməsi sahəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət siyasətinin başlıca təminatlarından olan ictimai-siyasi sabitliyin etibarlı qorunması, daha da möhkəmləndirilməsidir. Ölkəmizdə sabitliyi, əmin-amanlığı pozmaq, qarışıqlıq, xaos və anarxiya yaratmaq istəyən qüvvələrin qarşısı qanunların verdiyi imkanlar çərçivəsində ən sərt, qətiyyətli şəkildə alınacaqdır.

Daxili işlər naziri ölkə Prezidenti cənab İlham Əliyevi əmin edib ki, şəxsi heyət ölkənin qanunlarından, dövlət başçısının fərman və sərəncamlarından irəli gələn tələbləri layiqincə yerinə yetirəcək, xalqa və dövlətə sədaqətlə xidmət edəcək, sabitliyin, əmin-amanlığın, habelə dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcək, həmişə olduğu kimi, cari ili də yüksək göstəricilərlə başa vuracaqdır.

İctimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində qanunvericilikdə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Daxili İşlər Nazirliyinin və onun şəhər, rayon polis orqanlarının hüquqi vəziyyəti, funksiya və vəzifələri, sistemi və quruluşu, hüquqları və fəaliyyətinin təşkili barədə Siz bu mövzu vasitəsi ilə hüquqi biliklər əldə edəcəksiniz.

Mühazirənizin birinci sualında Şəhər, rayon polis orqanı-DIN-in vahid sisteminin tərkib hissəsi olan hüquq-mühafizə orqanı kimi sahəsinə diqqət yetiriləcək. Mühazirənizin ikinci sualında polis orqanına rəhbərlik, polis orqanına təkbaşçılıq prinsipi üzrə idarəetməni həyata keçirən rəisin rəhbərliyi barəsində məlumatlar veriləcək.Mühazirənizin üçüncü sualı polis orqanlarının işinin təşkili əsaslarına həsr olunacaq.

Mühazirənizin dördünçü sualı isə polis orqanının fəaliyyətində hüquqi təminat tədbirləri barəsində ətraflı qeyd olunacaqdır.

İndi isə birinci sualın açıqlanmasına keçək.

**SUAL 1. Şəhər, rayon polis orqanı-DIN-in vahid sisteminin tərkib hissəsi olan hüquq-mühafizə orqanı kimi.**

Şəhər, rayon, nəqliyyatda polis orqanı (bundan sonra polis orqanı) – ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən, habelə insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqazidd əməllərdən qoruyan, Daxili İşlər Nazirliyinin vahid sisteminin tərkib hissəsi olan hüquq-mühafizə orqanıdır.

Polis orqanı öz fəaliyyətində aşağıdakı normativ-hüquqi aktları rəhbər tutur:

– Azərbaycan Respublikasının Konstitusiyasını;

– Azərbaycan Respublikasının referendumla qəbul edilmiş aktlarını;

– Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərmanlarını;

– Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını;

– Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarını;

– Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri;

– «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnaməni;

– Nazirliyin normativ-hüquqi aktlarını;

**– Azərbaycan Respublikası DİN-in 13 iyul 2009-cu il tarixli 390 nömrəli əmri ilə təsdiq edilmiş Şəhər, rayon, nəqliyyatda polis orqanları haqqında Əsasnaməni.**

Polis orqanının strukturu və ştat cədvəli "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"nin 5.3.5-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən təsdiq olunur.

**Polis orqanı hüquqi şəxsdir,** üzərində Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri əks olunmuş və dövlət dilində öz adı yazılmış dairəvi möhürə, fəaliyyətini həyata keçirmək üçün digər lazımi möhür və ştamplara, xüsusi blanklara, dövlət xəzinədarlığında və kredit müəssisəsində hesablara malikdir.

Polis orqanının fəaliyyətinin maliyyələşdirilməsi və maddi-texniki təchizatı Azərbaycan Respublikasının dövlət büdcəsi, habelə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər mənbələr hesabına həyata keçirilir.

Polisin, onun aparatlarının və xidmətlərinin təşkilati quruluşunun müəyyən edilməsinin əsas amilləri polis tərəfindən yerinə yetirilən vəzifələrdən və funksiyalardan, Azərbaycan Respublikasının milli dövlət quruluşu formasından və inzibati-ərazi quruluşundan ibarətdir. Göstərilənlərdən əlavə, polis aparatlarının və

xidmətlərinin təşkil edilməsin təsir göstərən amillərə, həm də onlar tərəfindən yerinə yetirilən vəzifələrin həcmini, əməliyyat şəraiti və onların fəaliyyət göstərdikləri səciyyəvi mühit şəraitini və s. aid etmək olar.

Polis tərəfindən yerinə yetirilən funksiyalara, fəaliyyətinin əsas istiqamətlərinə müvafiq olaraq, daxili işlər orqanları sistemində polisin müstəqil aparat və xidmətləri təşkil edilmişdir. Məlum olduğu kimi, polisin üzərinə düşən funksiyaları istənilən təbəqəli polis orqanları bu və ya digər həcmdə həyata keçirirlər, bu vəziyyət də müvafiq polis aparat və xidmətlərinin eynitipli və onların təşkilati quruluşlarının oxşar olmasını şərtləndirir. Bununla yanaşı, polisin aparat və xidmətlərinin təşkilati növlərim eyni deyildir. Onlar hüquqi vəziyyətlərinə görə baş idarə, idarə, şöbə, bölmə, əməkdaşlar qrupu və s. növlü ola bilərlər.

**Polis aparat və xidmətlərinin təşkilati növlərinin seçilməsinə aşağıdakı amillər təsir göstərir:**

– polis orqanının iyerarxiya təbəqəsi;
– işinin həcmi;
– ərazi fəaliyyət miqyası;
– ştat sayı;
– digər amillər.

Yuxarıda qeyd edildiyi kimi, ərazi və ixtisaslaşdırılmış polis orqanları, nizami polis hissələri Daxili İşlər Nazirliyi sisteminə daxildirlər. Daxili işlər naziri də bütün daxili işlər orqanlarına, o cümlədən də polis orqanlarına rəhbərliyi həyata keçirir. Şəhər, rayon nəqliyyatda polis orqanlarına rəhbərlik isə Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən vəzifəyə təyin edilən rəis tərəfindən həyata keçirilir.

"Polis haqqında" Qanunun 9-cu maddəsinə əsasən, polisin tərkib hissələri və tabeliyi müəyyən edilmişdir. Qanunu bu müddəasına əsasən polis xidmətlərinin yaradılması, yenidən qurulması və ləğvi, polisin fəaliyyətinə rəhbərlik, polis orqanlarında vəzifəyə təyin və vəzifədən azad etmə Azərbaycan Respublikası daxili işlər naziri tərəfindən Azərbaycan Respublikasının Prezidentinə təkliflər təqdim edilməklə həyata keçirilir.

Şəhər, rayon polis orqanları ərazi polis orqanları sisteminin əsas təbəqəsi hesab edilirlər. Onlar bilavasitə şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin və digər xətaların xəbərdar edilməsi, qarşısının alınması və açılması üzrə vəzifə və funksiyaları yerinə yetirirlər.

Azərbaycan Respublikasının dövlət quruluşu formasına və onun inzibati-ərazi quruluşuna müvafiq olaraq, Azərbaycan Respublikasının bütün inzibati-ərazi vahidlərində, yəni şəhər və rayonlarında polis orqanları təşkil edilmişdir. Bundan əlavə şəhərlərdə və rayonlarda əhalinin sayını, ərazi miqyasını və digər amilləri

nəzərə alaraq müvafiq ərazi və qəsəbə polis bölmələri də yaradıla bilər. Belə bölmələr bir qayda olaraq, böyük yaşayış massivlərində və yaxud da qəsəbənin müvafiq ərazisində, yəni şəhər və rayonun ərazisinin müəyyən bir hissəsində xidmət aparırlar.

Şəhər və rayonun bütün ərazisi üzrə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə funksiyaların yerinə yetirilməsi şəhər, rayon polis orqanlarının və onların aparat və xidmətlərinin üzərinə düşür. Bununla yanaşı, şəhər və rayonun müəyyən ərazisində həmin funksiyaları ərazi polis bölmələri həyata keçirirlər.

Müxtəlif təbəqəli müstəqil polis aparat və xidmətlərinin, həmçinin də nizami polis özünün də vahid sistemi mövcud olsun, çünki, polisin özünün vahid sistemini təşkil edən bütün elementlər, yəni polis aparatları, xidmətləri və nizami hissələri bir-biri ilə çıx qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. Hər bir polis aparatı, xidmət və nizami polis hissəsi yerinə yetirilməsi onlara həvalə edilmiş xüsusi funksiyaları digər polis aparatları və xidmətləri ilə sıx qarşılıqlı əlaqədə həyata keçirirlər. Məsələn: post-patrul xidməti əməliyyat-axtarış aparatı əməkdaşlarının iştirakı olmadan ictimai yerlərdə törədilən cinayətkar əməllərin qarşısını müvəffəqiyyətlə ala bilməzlər. Digər tərəfdən isə əməliyyat-axtarış aparatının əməkdaşları da post-patrul xidməti əməkdaşlarının və polis sahə inspektorlarının iştirakı olmadan cinayətlərin xəbərdar edilməsi, qarşısının alınması və açılması, həmçinin də cinayətkarların axtarışı üzrə vəzifələri həll edə bilməzlər. Beləliklə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin və digər hüquqpozmaların xəbərdar edilməsi, qarşısının alınması və açılması sahəsində ümumi məqsədlərə nail olmaq üzrə işdə polisin bütün aparat və xidmətlərinin gücünün birləşdirilməsinin və onların qarşılıqlı əlaqələrinin obyektiv zəruriliyi mövcuddur.

Polis – daxili işlər orqanları sisteminin əsas tərkib hissəsi olmaqla yanaşı, onu DİO sistemini təşkil edən digər qurumlardan fərqləndirən özünəməxsus sistem əlamətlərin də malikdir. **Polisə xas olan belə sistem əlamətlərinə aşağıdakılar aiddir:**

– polis tərəfindən həyata keçirilən vəzifələrin səciyyəvi xüsusiyyətləri və funksiyalarının əhəmiyyəti;

– dövlət məcburetmə tədbirlərinin tətbiq edilməsi üzrə geniş səlahiyyətlərə malik olması;

– polis sisteminin dinamikliyi;

– aşkar və qeyri-aşkar fəaliyyət metodlarının qarşılıqlı əlaqəsi;

– digər dövlət orqanları, qeyri-hökumət təşkilatları, əmək kollektivləri və vətəndaşlar ilə qarşılıqlı əlaqəsi və s.

**Şəhər, rayon polis orqanlarının prinsipləri**. Polis orqanı öz işini insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, qanunçuluq, humanistlik və təkbaşçılıq, aşkar və qeyri-aşkar üsulların uzlaşdırılması, eləcə də dövlət, yerli özünüidarəetmə və digər orqanlarla qarşılıqlı əlaqə **prinsipləri** əsasında qurur.

**Şəhər, rayon polis orqanlarının funksiyaları.** Polis orqanlarının idarəetmə funksiyaları DİN-in idarəetmə funksiyaları kimi **ümumi, xüsusi (əsas) və təminedici funksiyalardan** ibarətdir.

**Ümumi idarəetmə funksiyalarına** proqnozlaşdırma, planlaşdırma, təşkil etmə, nizamasalma, təhlil, uçot və yoxlama (nəzarət) aiddir.

**İdarəetmənin xüsusi (əsas) funksiyalarına** vətəndaşların həyatının, sağlamlığının, hüquq və azadlıqlarının hüquqazidd qəsdlərdən qorunması, onlara kömək və yardımın göstərilməsi; ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi; cinayətlərin və inzibati xətaların xəbərdar edilməsi, qarşısının alınması və cinayətlərin təhqiqatının və istintaqının aparılması; mülkiyyətin mühafizəsi və s. aiddir.

**Təminedici funksiyalara** kadr, maliyyə, maddi-texniki, təsərrüfat, kargüzarlıq və s. aiddir.

**Polis orqanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində aşağıdakı funksiyaları həyata keçirir:**

1) ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması;

2) cinayətlərin və digər xətaların qarşısının alınması və açılması;

3) yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi.

**Şəhər, rayon polis orqanlarının vəzifələri**. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada polis orqanı aşağıdakı **vəzifələri** yerinə yetirir:

**İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində:**

– hər bir şəxsin təhlükəsizliyinin təmin edilməsi;

– qanunvericiliklə səlahiyyətlərinə aid edilmiş inzibati xətalar haqqında işlərə baxılması, habelə xüsusi icazələrin (lisenziyaların) verilməsi;

– Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada təhqiqat, ibtidai istintaq orqanlarının və məhkəmələrin qərarlarının icra edilməsi;

– qanunvericiliklə müəyyənləşdirilmiş qaydada tutulan şəxslərin müvafiq orqanlara təhvil verilənədək saxlanılması;

– ərazidə tətbiq edilən fövqəladə və ya hərbi vəziyyət rejiminin təminində, fövqəladə halların qarşısının alınması və onların aradan qaldırılması üzrə vahid dövlət tədbirlərinin, həmçinin karantin tədbirlərinin həyata keçirilməsində iştirak edilməsi;

– səlahiyyətləri çərçivəsində mülki müdafiə və səfərbərlik tədbirlərinin həyata keçirilməsində iştirak edilməsi;

– kütləvi tədbirlər zamanı asayişin və hüquq qaydasının təmin edilməsi;

– digər dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə birlikdə yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası;

– müvafiq dövlət orqanlarına və vəzifəli şəxslərə, yaxud qanuni sahiblərinə təhvil verilənədək sahibsiz əmlakın və dəfinələrin, habelə tapılmış və polisə təhvil verilmiş sənədlərin, əşyaların və digər əmlakın saxlanılması və mühafizəsinin təmin olunması;

– hüquqi və fiziki şəxslərin əmlakının hüquqazidd əməllərdən qorunması;

– verilmiş səlahiyyətlər daxilində vətəndaşlara şəxsiyyət vəsiqələrinin verilməsi, dəyişdirilməsi, onların yaşayış və olduğu yer üzrə qeydiyyatının, habelə səlahiyyətləri çərçivəsində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə hüquqi vəziyyətinin təmin olunması.

**Cinayətlərin və digər xətaların qarşısının alınması və açılması sahəsində:**

– cinayətlərin və digər xətaların qarşısının alınması, baş vermiş cinayət hadisəsinin aşkar edilməsi, qeydiyyatı və onu törədən şəxsin müəyyənləşdirilməsi, cinayəti doğuran səbəblərin öyrənilməsi və aradan qaldırılması üçün tədbirlərin görülməsi;

– cinayətlər və digər xətalar haqqında daxil olan ərizələrin və məlumatların qəbulunun, qeydiyyatdan keçirilməsinin və qanunla müəyyən edilmiş qaydada tədbirlərin görülməsinin təmin olunması;

– törədilmiş cinayətlərin açılması, cinayətlərin qeydiyyatının və müvafiq uçotunun aparılması, cinayət törətmiş şəxsin tutulması və polisə gətirilməsi üçün tədbirlərin görülməsi;

– qanunvericiliklə müəyyənləşdirilmiş qaydada əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi;

– qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada təhqiqat və istintaqın aparılması;

– yuxarıda göstərilən məsələlər üzrə təhqiqatçının, müstəntiqin, prokurorun və ya hakimin qərarlarının və yazılı tapşırıqlarının icra edilməsi;

– təhqiqat, istintaq və məhkəmə orqanlarından gizlənən və cəzadan yayınanların axtarışı, xəbərsiz itkin düşmüş şəxslərin, şəxsiyyətinin tanınması mümkün olmayan meyitlərin müəyyənləşdirilməsi işinin, habelə cinayət yolu ilə əldə olunmuş əmlakın axtarışının həyata keçirilməsi;

– Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallarda və qaydada cinayət işi üzrə zərər çəkmiş şəxslərin, şahidlərin və cinayət prosesinin digər iştirakçılarının, habelə məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin və

onların yaxın qohumlarının dövlət müdafiəsinin və əmlakının mühafizəsi işinin təmin olunması.

**Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində:**

– nəqliyyatın və piyadaların hərəkətinin nizamlanması, sürücülər və piyadalar tərəfindən yol hərəkəti qaydalarına riayət olunmasına nəzarət edilməsi və yol hərəkəti təhlükəsizliyinin təmini;

– yol hərəkəti və onun təhlükəsizliyi göstəricilərinin uçotunun aparılmasının təmini;

– yolların təmiri, tikintisi, layihələşdirilməsi, istismarı və onlara xidmət zamanı yol hərəkəti təhlükəsizliyinin tələbləri ilə bağlı qüvvədə olan qaydalara, normativlərə və standartlara əməl olunmasına nəzarət sahəsində öz səlahiyyətləri daxilində müvafiq tədbirlərin görülməsi;

– nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət edilməsi;

– yol hərəkəti qaydalarının pozulması və yol-nəqliyyat hadisələri üzrə təhqiqat aparılması, səlahiyyətləri daxilində inzibati tənbeh tədbirlərinin tətbiqi.

**İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində:**

– irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, bütün şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hüquqlarının və qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması;

– zərərçəkmiş, cinayəti törədən və ya törətməkdə şübhəli olan şəxslərdən, habelə cinayət prosesinin digər iştirakçılarından zorakılıq, hədə-qorxu və onların hüquqlarını pozan sair qanunsuz hərəkətləri ilə bağlı məlumatların alınmasına yol verilməməsi;

– şəxsin azadlıq hüququnun yalnız Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş əsaslarla və qaydada məhdudlaşdırılması prinsiplərinin rəhbər tutulması;

– hüquq və azadlıqları məhdudlaşdırılmış şəxsə məhdudlaşdırmanın əsaslarının və səbəblərinin, habelə bununla əlaqədar həmin şəxsin hüquq və vəzifələrinin ona izah edilməsi.

**Polis orqanı öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:**

– ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirmək;

– əməliyyat-axtarış, təhqiqat, ibtidai istintaq və kriminalistik tədqiqat fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hüquqları həyata keçirmək;

– xüsusi icazə (lisenziya) verilməsi sahəsində polis orqanlarının səlahiyyətlərinə aid edilmiş fəaliyyətini həyata keçirmək;

– yaşayış yeri və olduğu yer üzrə qeydiyyat qaydalarına riayət olunmasını həyata keçirmək;

– yol hərəkəti təhlükəsizliyinin təmin edilməsini həyata keçirmək;

– yol hərəkəti qaydalarının pozulması və yol-nəqliyyat hadisələri üzrə inzibati icraatın həyata keçirilməsi və tənbehlərinin tətbiqi, avtonəqliyyat vasitələrinin və qoşquların dövlət texniki vəziyyətinə nəzarət etmək;

– öz səlahiyyətləri hüdudlarında xidməti və mülki silahın dövriyyəsinə və döyüş sursatının saxlanılması qaydalarına riayət olunmasını həyata keçirmək;

– şəxsi heyəti insanların xilas edilməsi üzrə təxirəsalınmaz tədbirlərin keçirilməsi, ağır və iri miqyaslı qəzaların, yanğınların, təbii fəlakətlərin, kütləvi iğtişaşların və digər fövqəladə halların nəticələrinin aradan qaldırılması zamanı ictimai qaydanın təmin olunması işin, həmçinin digər xüsusi əməliyyatların və tədbirlərin keçirilməsinə cəlb etmək;

– polis orqanında maddi və maliyyə vəsaitlərinin uçotunu, onların istifadəsini həyata keçirmək;

– öz səlahiyyətlərinə aid edilən məsələlərə dair məhkəmələrdə iddia ilə çıxış etmək;

– qanunvericiliklə müəyyən edilən digər hüquqları həyata keçirmək.

**Polis orqanlarının strukturu.**

Polisin aparat və xidmətləri təkcə özlərinin mövcud olan sistemləri ilə deyil, həm də özlərinin müəyyən təşkilatdaxili struktura malik olmaları ilə xarakterizə olunurlar.

**Polisin aparat və xidmətlərinin təşkilatdaxili strukturu** dedikdə – polisin konkret aparat və xidmətlərinin daxili təşkilati hissələrinin quruluş növü başa düşülür. Polisin aparat və xidmətlərinin daxili struktur hissələrinin hər biri daxil olduğu orqanın səlahiyyətlərindən törəyən və həcmi dəqiq müəyyən edilən səlahiyyətlərə malikdir.

Polisin aparat və xidmətlərinin təşkilatdaxili strukturu onların funksiyaları ilə müəyyən edilir. Bu funksiyalara müvafiq olaraq, polisin aparat və xidmətlərində müvafiq bölmələr (hissələr) təşkil edilir.

Göstərilənlərə müvafiq olaraq, ictimai qaydanın qorunmasını təmin edən aparatın struktur hissələrinin tərkibində sahəsi bölmələr (hissələr) fəaliyyət göstərirlər. Məsələn, post-patrul xidməti; polis sahə inspektorları xidməti və s.

Sahəvi struktur bölmələrlə (hissələrlə) yanaşı polis aparat və xidmətlərində sahəvi struktur bölmələrinin (hissələrinin) fəaliyyətlərinin əlaqələndirilməsini həyata keçirən bölmələr də fəaliyyət göstərirlər. Belə bölmələr qabaqcıl iş təcrübələrini öyrənir və yayırlar, informasiyaların toplanmasını, onların işlənməsini və təhlil edilməsini, yəni idarəetmənin ümumi funksiyalarını həyata keçirirlər. Polisin aparat və xidmətlərində belə bölmələrə (hissələrə) analitik təşkilati-metodik və digər işləri həyata keçirən bölmələri aid etmək olar.

Polisin digər xidmətlərinin də təşkil edilməsində analoji sistemdən istifadə olunur. Belə ki, əməliyyat-axtarış xidməti vətəndaşların həyatına və sağlamlığına, onların əmlakına qəsd edən cinayətlərin, mülkiyyətə qəsd edən ayrı-ayrı cinayət növlərinin xəbərdar edilməsi, qarşısının alınması və açılması üzrə funksiyaları həyata keçirir, həmçinin də cinayət törətmiş şəxslərin, təhqiqat, istintaq və məhkəmə orqanlarından gizlənən şəxslərin, itmiş vətəndaşların axtarışını aparır və s. Bu funksiyaları həyata keçirmək üçün əməliyyat-axtarış aparatlarında müvafiq sahəvi bölmələr (hissələr) təşkil edilir. Bunlarla yanaşı, əməliyyat-axtarış xidmətində idarəetmənin təminedici funksiyalarını və ümumi funksiyalarını həyata keçirən bölmələr (hissələr) fəaliyyət göstərirlər.

Yol hərəkəti təhlükəsizliyini həyata keçirməli olan xidmət yol hərəkəti təhlükəsizliyini təmin edir, nəqliyyat vasitələrinin texniki vəziyyətlərinə nəzarəti həyata keçirir, yol hərəkəti qaydaları barədə təbliğat işlərini aparır və s. Göstərilənlərə müvafiq olaraq DYP aparatlarında aşağıdakı kimi struktur bölmələr (şöbə, bölmə, əməkdaşlar qrupu) təşkil edilir:

– yol-patrul xidməti;

– texniki nəzarət;

– yol hərəkəti təhlükəsizliyi üzrə təbliğat-təşviqat bölməsi və s.

DYP aparatlarında sahəvi bölmələrdən (hissələrdən) başqa qeydiyyat-imtahan, təşkilati-inspektor və digər funksiyaların realizəsi üzrə də bölmələr (hissələr) təşkil edilir.

Rayon, şəhər polis orqanlarının daxili strukturu müxtəlifdir, yəni bu orqanların daxili strukturunu təşkil edən struktur daxili strukturunu təşkil edən struktur elementləri hüquq vəziyyətlərinə görə bir-birindən fərqlənirlər. Məsələn: Bakı şəhər BPİ-nin Nəsimi RPİ-nin daxili struktur elementi olan ictimai təhlükəsizlik xidməti şöbə statusunda olduğu halda, Xaçmaz RPŞ-nin daxili struktur elementi olan ictimai təhlükəsizlik xidməti bölmə statusunda ola bilər.

Rayon, şəhər polis orqanlarının daxili strukturunun belə müxtəlif formada olması onlar tərəfindən yerinə yetirilən vəzifələrin həcminin müxtəlif olması və onların fəaliyyət göstərdikləri vəziyyəti və şəraitlə şərtləndirilir.

Göstərilən şərtlərdən irəli gələrək rayon, şəhər polis orqanlarının ştat vəzifə cədvəli və əməkdaşlarının ştat sayı da müxtəlif olur. Beləliklə, rayon (şəhər) polis

orqanlarının strukturu və ştatları müəyyən edilərkən rayon (şəhər) polis orqanlarının tipi və növləri də nəzərə alınır.

**Bununla belə, rayon (şəhər) polis orqanlarının təşkilati strukturu üçün aşağıdakı struktur elementlərinin mövcudluğu xarakterikdir:**

1) rəhbərlik (rəis və onun müavinləri);

2) ümum idarəetmə funksiyalarını həyata keçirən təşkilati-inspektor bölmələri (hissələri);

3) əsas və təminedici funksiyaları həyata keçirən şöbələr (bölmələr), xidmətlər, hissələr, qruplar və s.

Göstərilənlərdən əlavə, rayon (şəhər) polis orqanlarının tərkibində özünün xidməti ərazisinə malik olan bölmələr də ola bilər.

**Beləliklə, mühazirəmizin birinci sualının açıqlanmasını yekunlaşdıraraq qeyd etmək istərdim ki, polis orqanı DİN-in vahid sisteminin tərkib hissəsi olan hüquq-mühafizə orqanıdır. Polis orqanları ərazi polis orqanları sisteminin əsas təbəqəsi hesab edilirlər.**

**SUAL 2. Polis orqanına rəhbərlik.**

Polis orqanına Azərbaycan Respublikası Prezidenti ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən vəzifəyə təyin edilən rəis rəhbərlik edir.

**Polis orqanına rəhbərlik.**

**Polis orqanına təkbaşçılıq prinsipi üzrə idarəetməni həyata keçirən rəis rəhbərlik edir.**

Polis orqanının rəisi: xidmət və hissələrin işinin təşkilinə, kadrlarla işin vəziyyətinə, onların təyinatı üzrə istifadəsinə, insan və vətəndaş hüquqlarının qorunmasına, şəxsi heyət tərəfindən nizam-intizama və qanunçuluğa riayət olunmasına, orqanın maliyyə-təsərrüfat fəaliyyətinin vəziyyətinə görə şəxsən məsuliyyət daşıyır. Qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün səlahiyyətləri daxilində qərarlar qəbul edir.

Vəzifə səlahiyyətlərinə müvafiq olaraq və orqanın strukturu nəzərə alınmaqla müavinləri arasında vəzifə bölgüsü aparır (nümunəvi siyahı əlavə olunur), onların fəaliyyətinə nəzarət edir və istiqamətləndirir, işin təşkili üzrə qərarlar qəbul edir.

Rəis xidməti ezamiyyətə getdikdə və ya məzuniyyətə çıxdıqda, səlahiyyətlərinin icrasını əmrlə əməliyyat üzrə rəis müavininə həvalə edir. Həmin vəzifə ştatı vakant olduqda, yaxud rəis müavini üzrlü səbəbdən olmadıqda, rəis, səlahiyyətlərinin icrasını DİN rəhbərliyi ilə razılaşdırmaqla, digər rəis müavininə həvalə edir.

***Rəis, qüvvədə olan qanunvericilik, DİN-in normativ hüquqi aktları əsasında üzərinə düşən vəzifələri yerinə yetirir, səlahiyyətləri daxilində, orqanın işinin təşkilinin əsas istiqamətləri, o cümlədən aşağıdakı məsələlər üzrə əmrlər verir:***

- səlahiyyət nomenklaturalarına uyğun olaraq xidmətə qəbul, işə götürmə, vəzifə üzrə yerdəyişmə, vəzifədən və işdən azad olunma, habelə əməkdaşlara xüsusi rütbələrin verilməsinə dair;
- həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiqinə şəxsi heyətlə iş üzrə digər məsələlərin həllinə dair;
- daxili intizam və idarəetmə qaydalarına, tabelik üzrə yuxarı polis orqanının və DİN-in normativ aktlarının tələblərinin icrasına, habelə digər məsələlər üzrə öz vəzifə səlahiyyətlərinin həyata keçirilməsi zərurəti ilə bağlı;
- qüvvə və vasitələrin yerləşdirilməsi, onların yaranmış əməliyyat şəraitinə uyğun yerdəyişməsi.

Əmrlər bir qayda olaraq şəxsi heyətə müşavirələrdə və sıra qarşısında elan edilir.

Rəis, daxil olan qanunvericilik aktlarının, dövlət hakimiyyət və yerli özünüidarə orqanlarının qərarlarının, yuxarı instansiyaların əmrlərinin, nizamnamələrin, təlimatların, planlarının və digər inzibati qərarlarının icrası, həmçinin ərizə, təklif və şikayətlərə, cinayətlər və inzibati xətalar barədə

məlumatlara, eləcə də digər informasiyalara baxılması, onların həlli qaydalarına dair yazılı göstərişlər verir.

Rəisin qanuni əmrləri və şifahi göstərişləri tabelikdəki əməkdaşlar tərəfindən sözsüz, dəqiq və vaxtında yerinə yetirilməlidir. Polis əməkdaşı açıq-aşkar qanunazidd əmr və göstəriş aldıqda Qanunu rəhbər tutmalı, bu barədə yuxarı rəhbərliyə məlumat verməlidir.

Orqanın əməliyyat-xidməti fəaliyyəti üzrə əsas məsələlərin müzakirəsi, informasiyaların peşəkarlıqla, hərtərəfli təhlilinin təmin edilməsi, müvafiq inzibati qərarların işlənib hazırlanması, onların icra vəziyyətinin qiymətləndirilməsi və nəzarət məqsədilə rəis yanında əməliyyat müşavirəsi fəaliyyət göstərir. Əməliyyat müşavirələri DİN-in 138-03 nömrəli əmri ilə müəyyən edilmiş qaydalara uyğun hazırlanır və keçirilir.

Daimi fəaliyyət göstərən əməliyyat müşavirəsi rəisin əmri ilə aşağıdakı tərkibdə yaradılır: rəis, onun müavinləri, struktur xidmətlərin rəhbərləri. Əməliyyat müşavirəsinin hazırlanması işində rəisin icazəsi ilə digər əməkdaşlar da iştirak edə bilər.

Əməliyyat müşavirələrində orqanın və onun struktur hissələrinin iş planlarının layihələrinə, qabaqcıl təcrübənin, elmi və ən yeni texniki vasitələrin tətbiqi üzrə tövsiyələrə və tədbirlərə, onlardan cinayətkarlığa qarşı mübarizədə istifadə olunmasına, həmçinin fəaliyyətin səmərəliliyinin yüksəldilməsi yollarına kadrların seçilib yerləşdirilməsi, peşə hazırlığı və təlim-tərbiyəsi işlərinin təkmilləşdirilməsi üzrə təkliflərə, Azərbaycan Respublikası qanunvericiliyinin, yuxarı polis orqanlarının qərarlarının icrasının nəticələrinə, orqanın struktur hissələrinin hesabat dövründəki işinin yekunlarına, həmçinin səlahiyyətli orqanların qərarlarının icrası üzrə işin vəziyyətinə və nəticələrinə, eləcə də əməliyyat-xidməti fəaliyyətin digər məsələlərinə baxılır.

Əməliyyat müşavirəsinin işi rüblük planlaşdırılır, ayda 1 dəfədən az olmayaraq, cari və aktual məsələlər müzakirəyə çıxarılır. Əməliyyat müşavirəsi müəyyən edilmiş gün və saatda keçirilir. Zəruri hallarda rəis növbədənkənar müşavirə təyin edir. Rəis müzakirə olunan məsələlərin nəticələrinə uyğun qərarlar qəbul edir, onun icrasının təşkilinə nəzarəti təmin edir.

Məxfilik tələb edən məsələlərin müzakirəsinin aparılması üçün ayrıca əməliyyat müşavirəsi keçirilir. Dəftərxanada qeydə alınmış xüsusi jurnalda əməliyyat işi üzrə rəis müavini tərəfindən müşavirələrin, orada müzakirə olunmuş məsələlərin və qəbul edilmiş qərarların uçotu aparılır.

Polis orqanında təşkilati-inspeksiya xidməti tərəfindən cinayətkarlığa qarşı mübarizə, ictimai təhlükəsizlik üzrə kompleks problemlərin həlli, nəzarət və əlaqələndirmə vəzifələri, təşkilati-analitik və metodiki təminat məsələləri təşkilati cəhətdən təmin edilir.

**Polis orqanının rəisi:**

– orqanın fəaliyyətinə rəhbərlik edir, həvalə olunmuş vəzifələrin həyata keçirilməsinə şəxsən məsuliyyət daşıyır, bilavasitə DİN-ə və onun struktur

xidmətlərinə tabe olan hissələr istisna olmaqla, xidməti ərazidə bütün daxili işlər orqanlarına əməliyyat rəhbərliyini həyata keçirir;

– müavinlərin və struktur xidmətlərin rəhbərləri arasında vəzifə bölgüsü aparır, əməkdaşların funksional vəzifələrini təsdiq edir. Səlahiyyətləri daxilində orqanın əməliyyat-xidməti fəaliyyətinin təşkili üzrə əmrlər verir, icrasına nəzarəti təşkil edir, qanunvericiliyin, tabelik üzrə yuxarı orqanların və DİN-in normativ hüquqi aktlarının həyata keçirilməsini təmin və bu işə nəzarəti təşkil edir;

– cinayətlər, asayişin pozulması, təbii fəlakətlər, kütləvi iğtişaş, fövqəladə şərait və hadisələr haqqında daxil olan məlumatlar üzrə təcili kompleks tədbirlər görür, mövcud əməliyyat şəraitinin kompleks təhlilini, qüvvə və vasitələrin düzgün yerləşdirilməsini, onlardan səmərəli istifadə olunmasını təşkil edir, orqanın təşkilati və əməliyyat-xidməti fəaliyyətinin təkmilləşdirilməsi üzrə qərarlar qəbul edir;

– mülki müdafiə tədbirlərinin həyata keçirilməsi, dinc dövrdə və müharibə şəraitində, fövqəladə vəziyyət və hadisələr zamanı keçirilən tədbirlərdə orqan əməkdaşlarının iştirakını təmin edir;

– cinayətkarlıqla mübarizədə digər hüquq-mühafizə, dövlət orqanları və təşkilatları arasında qarşılıqlı fəaliyyəti təşkil edir;

– cinayətlər və hadisələr barədə daxil olmuş ərizə, məlumat və digər informasiyaların qeydiyyatını, uçotunu və baxılmasını, rəhbərlik və xidmət rəisləri tərəfindən vətəndaşların qəbulunu təşkil edir. Şəxsən vətəndaşları qəbul edir;

– təhqiqat orqanının rəhbəri olmaqla, səlahiyyətləri daxilində inzibati xətalar haqqında materiallara baxır, cinayət-prosessual qanunvericiliyi ilə nəzərdə tutulan hüquqlardan istifadə edərək materiallar üzrə qanuni tədbirlər görülməsi işini təşkil edir;

– agentura-əməliyyat və müvafiq uçot işlərinin aparılmasını təşkil edir, şəxsən agentura ilə işləyir;

– cinayətlərin və inzibati xətaların vaxtında aşkar edilib qarşısının alınması, açılması, onları törətmiş şəxslərin axtarışı üzrə işi təşkil edir, ağır cinayətlərin açılması prosesinə şəxsən nəzarət edir. Ayrı-ayrı cinayətlərin açılması, cinayət törətmiş şəxslərin yaxalanması, ictimai qaydanın qrup halında pozulmasının və kütləvi iğtişaşların qarşısının alınması, aradan qaldırılması və ictimai təhlükəsizliyin təmin olunması üçün istintaq-əməliyyat qrupları yaradır;

– əməkdaşların qanunçuluğa riayət etməsinə nəzarət edir, qanun pozuntuları barədə ərizə və şikayətlərə vaxtında baxılmasını və onların düzgün həllini təşkil edir;

– ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinin, habelə orqanın əməliyyat-xidməti fəaliyyətinin vəziyyəti haqqında statistik və

digər məlumatların dəqiqliyini, dolğunluğunu və vaxtında lazımi orqanlara təqdim olunmasını təmin edir və bu sahəyə görə şəxsən məsuliyyət daşıyır;

– əməliyyat müşavirələrinə rəhbərlik edir, onun tərkibini təsdiq edir, müavinlərinin, polis bölmələrinin və xidmət rəhbərlərinin, habelə ayrı-ayrı əməkdaşların gördükləri işlərə dair hesabatlarını tələb edir, orqanın əməliyyat-xidməti fəaliyyətinə aid digər məsələlərə baxılmasını həyata keçirir;

– kadrların seçilib yerləşdirilməsi, təlim-tərbiyəsi, peşə hazırlığı səviyyəsinin artırılması üçün tədbirlər görür; yuxarı vəzifələrə təyin edilmək üçün kadr ehtiyatının yaradılması, orta və böyük rəis heyətindən olan əməkdaşların xidmət üzrə yerlərinin dəyişdirilməsi üçün təklif verir (verilmiş səlahiyyətlər daxilində bu işi həyata keçirir); öz səlahiyyətləri daxilində; sıravi və kiçik rəis heyətinin daxili işlər orqanlarında xidmətə qəbulunu; xidmətdən xaric edilməsini; onlara xüsusi rütbələrin və məharət dərəcələrinin verilməsini; mülki şəxslərin fəhlə və qulluqçu vəzifələrinə işə qəbulunu və işdən azad edilməsini; həvəsləndirmə və intizam tənbehi tədbirlərini həyata keçirir. Xidməti zərurətlə əlaqədar orqanın ştatlarında dəyişikliklər edilməsi barədə təkliflər verir;

– qüvvədə olan qanunvericiliyə və DİN-in normativ-hüquqi aktlarına müvafiq olaraq daxili intizam qaydalarını və orqanın iş rejimini müəyyən edir, əməkdaşlara həvalə olunmuş vəzifələrin icrası zamanı təhlükəsizlik tələblərinə riayət olunmasını təmin edir. Tabelikdəki əməkdaşların tərtib edilmiş qrafikə uyğun olaraq məzuniyyətə getmələrinə icazə verir, müəyyən edilmiş qaydada onları respublika daxilində xidməti ezamiyyətə göndərir. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin normativ-hüquqi aktlarına müvafiq olaraq sıravi və kiçik, orta və böyük rəis heyətinin attestasiyasını keçirir;

– əməliyyat şəraitindən asılı olaraq və fövqəladə hadisələr zamanı şəxsi heyəti qismən, yaxud tam gücləndirilmiş iş rejiminə keçirir, bu barədə yuxarı instansiyalara məlumat verir;

– silahın, avtonəqliyyatın, xüsusi vasitələrin, kriminalistik texnikanın və digər maddi vəsaitlərin inventarlaşdırılmasının keçirilməsini təmin edir, onların səmərəli və məqsədyönlü sərfinə, uçotuna, saxlanmasına və texniki vəziyyətinə nəzarəti həyata keçirir, daima hazır və keyfiyyətli vəziyyətdə saxlanılması üçün tədbirlər görür;

– əməkdaşların şəxsi işlərinin inventarizasiyasının aparılmasını təşkil edir;

– maliyyə-təsərrüfat və kargüzarlıq məsələlərinin həllinə şəxsən nəzarət edir. Pul və material ehtiyatlarının səmərəli istifadəsini təmin edir.

Şəhər, rayon və nəqliyyatda polis orqanlarında əməliyyat-xidməti fəaliyyətin təşkili qaydaları DİN-in 13.07.2009-cu il tarixli 390 №-li əmri ilə təsdiq edilmiş «Şəhər rayon və nəqliyyatda polis orqanlarının işinin təşkili haqqında» Təlimatla tənzimlənir.

Polis orqanının ayrı-ayrı xidmətləri və sahələri üzrə konkret vəzifələri yalnız Azərbaycan Respublikası bu Təlimatla məhdudlaşdırılmır, onların gündəlik işində DİN-in digər müvafiq əmr və göstərişləri də rəhbər tutulur.

**Polis orqanlarının rəhbərliyi arasında nümunəvi vəzifə bölgüsü DİN-in 13.07.2009-cu il tarixli 390 nömrəli əmri ilə təsdiq edilmiş "Şəhər, rayon və nəqliyyatda polis orqanlarının rəhbərliyi arasında nümunəvi vəzifə bölgüsü" ilə həyata keçirirlər.**

**Şəhər, rayon, nəqliyyatda polis orqanlarının rəhbərliyi arasında nümunəvi vəzifə bölgüsü.**

Polis orqanının rəisi əməliyyat-xidməti fəaliyyətin təşkili üzrə müavinləri arasında vəzifə bölgüsü aparır, "Şəhər, rayon, nəqliyyatda polis orqanlarının işinin təşkili haqqında" Təlimatın tələblərinə uyğun olaraq, orqana həvalə edilmiş vəzifələrin həyata keçirilməsini təmin edir, nəticələrinə görə şəxsən məsuliyyət daşıyır.

Təşkilati-inspektor xidmətinə, növbətçi hissəyə, təhqiqat, istintaq və kadr aparatlarına, maliyyə-təsərrüfat, kargüzarlıq fəaliyyətinə rəhbərliyi və nəzarəti həyata keçirir.

**Orqanın əməliyyat işi üzrə rəis müavini:**

- cinayət axtarış, mütəşəkkil cinayətkarlıqla və narkotiklərlə mübarizə qurumlarına, müvəqqəti saxlama yerlərində əməliyyat-axtarış fəaliyyətinə, kriminalistik tədqiqatlar, uçot-qeydiyyat, informasiya təminatı sahələrinə və nəzarəti həyata keçirir;
- cinayətlərin qarşısının alınması və açılması, təhqiqat, istintaq və məhkəmə orqanlarından gizlənən və cəzadan yayınanların axtarışını, xəbərsiz itkin düşmüş şəxslərin yerinin, tanınması mümkün olmayan meyitlərin şəxsiyyətinin müəyyənləşdirilməsi işini, habelə oğurlanmış əmlakın axtarışının təşkili üzrə əməliyyat-axtarış tədbirlərinin keçirilməsini, orqana daxil olmuş əməliyyat-axtarış məlumatlarının uçotunu, baxılmasını, yoxlanılmasını və realizəsini təşkil edir;
- əməliyyat xidməti əməkdaşlarının vəzifə və funksiyalarını müəyyən edir;
- əməliyyat-axtarış işinin planlaşdırılmasını, istintaq təcridxanaları, cəzaçəkmə müəssisələri, 7-ci İdarə və digər orqanlarla qarşılıqlı əlaqəni təşkil edir, agentura-əməliyyat nəticələrinin uçotunun aparılmasını, məxfi əməkdaşlarla aparılan işə nəzarəti həyata keçirir. Şəxsən məxfi əməkdaşlarla işləyir, bu sahənin keyfiyyət baxımından yaxşılaşdırılması üçün tədbirlər hazırlayır, qabaqcıl təcrübənin tətbiqini təmin edir;
- müvəqqəti saxlama yerlərində kameradaxili agentura-əməliyyat tədbirlərini hazırlayır və həyata keçirilməsini təmin edir;
- məxfilik rejiminə nəzarəti həyata keçirir;
- rəhbərlik etdiyi xidmət sahələrinin fəaliyyətinin ümumiləşdirilməsini, hesabat sənədlərinin hazırlanmasını təmin edir, problem məsələləri əməliyyat müşavirəsinə çıxarır.

**Orqanın xidmət üzrə rəis müavini:**

- ictimai təhlükəsizlik, DYP, qeydiyyat və şəxsiyyət vəsiqəsi qurumlarına, post-patrul xidmətinə, polis sahə rəislərinə, polis sahə inspektorlarına, növbətçi

hissədə və müvəqqəti saxlama yerlərində xidmətin təşkilinə rəhbərliyi və nəzarəti həyata keçirir;

- ictimai qaydanın və ictimai təhlükəsizliyin təmini işini təşkil edir;

- ictimai yerlərdə xətaların qarşısının alınması üçün tədbirlər görür, bu məqsədlə müvafiq təhlil əsasında qüvvə və vasitələrin kompleks şəkildə istifadə planının (vahid dislokasiya) işlənib hazırlanmasını təmin edir;

- qanunla müəyyən edilmiş qaydada polisdə qeydiyyatda olan şəxslər ətrafında, habelə xüsusi icazələrin (lisenziya) və şəxslərə məhkumluğun olması (olmaması) barədə arayışların verilməsi üzrə fəaliyyəti təşkil edir;

- yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının qarşısının alınması üçün tədbirlər görür;

- xidməti ərazidə cinayətlərin və inzibati xətaların vəziyyətinin təhlilini, bu əsasda polisin qüvvə və vasitələrinin yerləşdirilməsini və onların fəaliyyətinin uzlaşdırılmasını təmin edir;

- kuratoru olduğu xidmətlərin, orqanın digər xidmət sahələri ilə qarşılıqlı əlaqəsini və polis naryadlarının təlimatlandırılmasını təşkil edir;

- ictimai təhlükəsizlik, DYP, qeydiyyat və şəxsiyyət vəsiqəsi qurumlarının, polis sahə rəislərinin, polis sahə inspektorlarının, post-patrul və digər bayır xidmətlərinin fəaliyyətini təşkil edir;

- müvəqqəti saxlama yerlərində xidmətin aparılmasını, tutulmuş və həbs edilmiş şəxslərin saxlanılmasını və müşayiət olunmasını təşkil edir;

- kuratoru olduğu xidmətlərin fəaliyyətinə və bu sahədə hazırlanan statistik məlumatların düzgün tərtibatına və dəqiqliyinə nəzarət edir.

**Orqanın rəisinin şəxsi heyətlə iş üzrə böyük köməkçisi (köməkçisi):**

- təlim-tərbiyə üzrə fəaliyyəti təşkil və bu işə rəhbərliyi həyata keçirir. Kadr aparatı və ya kadrlarla iş üzrə əməkdaş ştatı olmadıqda, həmin vəzifələri icra edir;

- şəxsi heyət arasında təlim-tərbiyə, gənc əməkdaşlara hamiçilik işinin təşkili, sağlam mənəvi-psixoloji mühitin yaradılması, intizamın möhkəmləndirilməsi, habelə vəzifə borcunu yerinə yetirərkən həlak olmuş, yaralanmış, eləcə də itkin düşmüş əməkdaşların qeydiyyatının aparılması, şəxsi heyətin sosial müdafiəsi məsələlərinin həlli üzrə tədbirlər görür;

- ayrı-ayrı xidmət sahələri, dövlət orqanları və ictimai təşkilatlarla əlaqə saxlayır, aşkar olunmuş siyasi savadsızlıq, mənəvi naqislik, polisdə xidmətlə bir araya sığmayan fəaliyyətlə məşğul olma halları xidməti yoxlamalar keçirir və nəticələri üzrə rəy hazırlayır;

- şəxsi heyətin təlim-tərbiyəsinin, işgüzarlığının, xidməti intizamının artırılması, xidməti, döyüş və fiziki hazırlıq dərslərinin təşkili üçün tədbirlər görür, həvəsləndirmə və intizam tədbirləri üzrə əmr layihəsinin hazırlanmasına iştirak edir, orqanın ictimai qurumlarının (müvafiq yığıncaqlar, hami tərbiyəçilər, veteranlar şurası və s.) işini təşkil edir.

**Mühazirəmizin ikinci sualının açıqlanmasını yekunlaşdıraraq qeyd etmək istərdim ki, polis orqanı rəhbərliyinin DİN-in vahid sisteminin tərkib hissəsi olan hüquq-mühafizə orqanlarında özünə məxsus yeri və əhəmiyyəti mövcudur.**

**Sual 3. Polis orqanlarının işinin təşkili əsasları.**

**Polis orqanının işi aşağıdakı istiqamətlər üzrə təşkil edilir:**

1. İnformasiyaların toplanılması və təhlili, xidməti ərazidə əməliyyat şəraitinin qiymətləndirilməsi və proqnozu əsasında orqanın xidməti vəzifələrin yerinə yetirilməsinə səfərbər edilməsi.
2. Polis orqanının fəaliyyətinin planlaşdırılması, cari məsələlərin həllinin səmərəliliyinin və ardıcıllığının müəyyən edilməsi.
3. Yuxarı instansiyalar tərəfindən qəbul olunmuş qərarların icrası.
4. Hüquq-mühafizə vəzifələrinin həyata keçirilməsində tabelikdəki qurumlar, digər polis, daxili işlər və hüquq-mühafizə orqanları ilə işin əlaqələndirilməsi və qarşılıqlı fəaliyyəti.
5. Qüvvə və vasitələrin yerləşdirilməsi, cinayətkarlıqla mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təminində onlardan səmərəli istifadə olunması və əməliyyat şəraitinə uyğun çevik idarə edilməsi.
6. Kadrların seçilib yerləşdirilməsi. Xidmət keçmə, təlim-tərbiyə və peşə hazırlığı işinin təmini.
7. Maddi-texniki vasitələrlə təminat, onların istismarı, maliyyə və təsərrüfat fəaliyyətinin, habelə kargüzarlığın həyata keçirilməsi.
8. Hər bir əməkdaşın, xidmətin, eləcə də bütövlükdə orqanın işinə nəzarətin təmin olunması, fəaliyyətin nəticələrinin obyektiv qiymətlən-dirilməsi, cinayətlərin və digər xətaların və s. uçotunun aparılması.
9. Məxfi və fərdi məlumatlar bazasının, əməliyyat-axtarış fəaliyyəti haqqında informasiyaların aşkarlanmasının (o cümlədən texniki kanallarla) qarşısının alınması üçün müvafiq tədbirlərin həyata keçirilməsi.
10. Qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi.
11. Səfərbərlik məsələlərinin və mülki müdafiə işinin yerinə yetirilməsi üzrə kompleks tədbirlərin həyata keçirilməsi.

**“Şəhər, rayon və nəqliyyatda polis orqanlarının işinin təşkili haqqında” Təlimata müvafiq olaraq polis orqanın rəisi aşağıdakı xidmət sahələrinin işini də təşkil edir və onların fəaliyyətinə nəzarət edir:**

– polis orqanında idarəetmənin təşkili, informasiyaların toplanması, ümumiləşdirilməsi və təhlili;
– polis orqanının fəaliyyətinin planlaşdırılması;
– qərarların icrasının təmin edilməsi;
– xidmətlərarası qarşılıqlı əlaqənin təmin edilməsi;
– qüvvə və vasitələrin yerləşdirilməsi;
– uçot-qeydiyyat işinin təşkili;

– polis orqanının və onun xidmət sahələrinin fəaliyyətinə nəzarət sisteminin müəyyən edilməsi və həyata keçirilməsi;

– qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi;

– polis orqanının əsas istiqamətləri üzrə işin təşkili;

– hüquqi təminatın təşkili və kadrlarla iş üzrə və s.

Polis orqanlarının qarşısında duran vəzifələrin tam, vaxtında və daha da səmərəli yerinə yetirilməsini təmin etmək məqsədi ilə polis orqanının rəisi əməliyyat-xidməti fəaliyyətin təşkili üzrə müavinləri arasında vəzifə bölgüsü aparır.

**Polis orqanında idarəetmənin təşkili, informasiyaların toplanması, ümumiləşdirilməsi və təhlili.**

Cinayətlər, inzibati xətalar barədə informasiyaların və digər məlumatların toplanılması və sistemləşdirilməsi növbətçi hissə, ümumiləşdirilməsi və təhlili təşkilati-inspektor xidməti, xüsusi informasiyalar isə müvafiq əməliyyat xidmətləri tərəfindən həyata keçirilir və aşağıdakıları əhatə edir:

- cinayətlər, inzibati xətalar barədə, habelə ictimai təhlükəsizlik vətəndaşların hüquq və azadlıqları üçün təhlükə doğuran hadisələr haqqında informasiyaların fasiləsiz olaraq toplanılması, ümumiləşdirilməsi və təhlili əsasında qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini, eləcə də əsasında qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini, eləcə də tabelikdəki orqanların perspektiv vəzifələrinin müəyyən edilməsini;

- informasiyaların vaxtında və keyfiyyətli toplanılmasına, müəyyən olunmuş qaydada tabelik üzrə yuxarı polis orqanına və DİN-in Növbətçi Hissələri İdarəetmə Xidmətinə çatdırılmasına görə məsul şəxslərin müəyyən edilməsini;

- əməliyyat, istintaq, təhqiqat və uçot-qeydiyyat işçiləri tərəfindən məlumatların, ilkin uçot sənədlərinin Dİn-in BƏSİİ-yə təqdim olunmasını;

- informasiyaların toplanma müddətlərinin sutkalıq, on günlük, aylıq, rüblük, yarımillik, doqquz aylıq və illik müəyyən edilməsini.

Sutkalıq, on günlük və aylıq informasiyaların öyrənilməsi əsasında əməliyyat şəraitinin cari təhlili aşağıdakı istiqamətlərdə həyata keçirilir:

- hüquqpozmalar (o cümlədən inzibati xətalar) və onları törədən şəxslər haqqında, hüquqpozmaların törədilmə yeri və vaxtı, cinayətlərin ayrı-ayrı növlərinin strukturu və dinamikası, ictimai təhlükəsizliyinin təmin edilməsi, cinayətlərin profilaktikası və açılması üzrə polis orqanı tərəfindən görülən tədbirlər üzrə;

- profilaktiki qeydiyyata götürülən yetkinlik yaşına çatmayanlar, polisin nəzarətində olan və polis orqanlarının təsir dairəsinə düşən cinayətə meylli şəxslərin müəyyən edilmiş qaydalara əməl etmələri üzrə;

- cinayətlərin və digər hüquqpozmaların törədilməsinin səbəb və şəraiti ilə bağlı;

- polis orqanının fəaliyyətinin nəticələri və səmərəliliyi ilə əlaqədar.

Əməliyyat şəraitinin rüblük, yarımillik, doqquz aylıq və illik təhlili zamanı aşağıdakılar nəzərə alınır:

- xidməti ərazinin sosial-iqtisadi, coğrafi və demoqrafik xarakteristikası;
- xidməti ərazidə daha çox törədilən hüquqpozmaların növü, vaxtı, yeri, səciyyəvi xüsusiyyətləri və onları törədənlərin şəxsiyyətləri haqqında məlumatları;
- cinayətlərin törədilməsinin səbəb və şəraitinin aşkar edilməsi və aradan qaldırılması üzrə görülən tədbirlər;
- profilaktik və əməliyyat uçotlarında olan şəxslərin sayı haqqında məlumat, həmçinin polis nəzarətinə verilmiş şəxslərin davranışına nəzarətin vəziyyəti barədə informasiyalar;
- polis orqanının fəaliyyəti və ayrı-ayrı əməkdaşlar haqqında vətəndaşların təkliflərinin, ərizə və şikayətlərinin, kütləvi informasiya vasitələrində dərc olunmuş materialların və ictimai rəyi əks etdirən məlumatların öyrənilməsi.

Kompleks təhlilin nəticələri aşağıdakıları əhatə edir:
- cinayətkarlığın dinamikası və strukturunda baş verən dəyişikliklərin, onların səbəbləri nəzərə alınmaqla kriminogen durumun qiymətləndirilməsini;
- cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təminində inzibati ərazi üçün daha aktual və spesifik problemləri, əməliyyat şəraitinin mürəkkəbləşdiyi ərazilərin və mühüm, həyat əhəmiyyətli obyektlərin siyahısının əldə edilməsini;
- xidməti vəzifələrin yerinə yetirilməsi üzrə işin nəticələrinə qiymət verilməsini;
- fəaliyyətdəki nöqsanları doğuran səbəb və şəraiti, onların aradan qaldırılması üzrə tədbirləri.

**İşin planlaşdırılması.**

Polis orqanının fəaliyyətinin planlaşdırılması və qarşıda duran vəzifələrin ardıcıllığının müəyyən edilməsi mövcud şəraitin və əməliyyat-xidməti fəaliyyətin nəticələrinin təhlili əsasında həyata keçirilir

Polis orqanında aşağıdakı əsas planlar işlənib hazırlanır:
- əməliyyat-xidməti fəaliyyət üzrə;
- cinayətlərin açılması ilə əlaqədar birgə istintaq-əməliyyat tədbirləri üzrə;
- fövqəladə hadisələr zamanı qüvvə və vasitələrdən istifadə üzrə;
- cinayət işləri, habelə əməliyyat-uçot işləri üzrə;
- ayrı-ayrı tədbirlərin həyata keçirilməsi üzrə.

Polis orqanının əməliyyat-xidmət fəaliyyətinin planına aşağıdakı əsas bölmələr daxildir:
- vəziyyətin təhlilinin qısa nəticələri və qarşıda duran əsas vəzifələr, cinayətlərin qarşısının alınması və açılması, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmini, vətəndaşların hüquq və azadlıqlarının, həyat və sağlamlıqlarının qorunması üzrə tədbirlər;
- qabaqcıl təcrübənin işdə tətbiqi;
- informasiya-təhlil işi;
- uçot-qeydiyyat, xidməti və icra intizamının möhkəmləndirilməsi və ona nəzarətin təkmilləşdirilməsi;
- kadrlarla iş, nizam-intizamın, qanunçuluğun möhkəmləndirilməsi;

- şəxsiyyət vəsiqəsi və qeydiyyat işi, xüsusi icazə sistemi, yol hərəkəti təhlükəsizliyinin təmini;
- mülki müdafiə tədbirlərinin həyata keçirilməsinin təmini;
- texniki və rabitə vasitələri ilə təminat, informasiyaların mühafizəsi;
- təchizat və maliyyə məsələsi;
- kargüzarlıq.

**Qərarların icrası.**

Rəis, müavinləri vasitəsi ilə öz səlahiyyətləri daxilində əmrlərin, göstərişlərin, iş planlarının, həmçinin qəbul olunmuş digər qərarların dəqiq və vaxtında icrasını təmin edir.

Bu məqsədlə:
- icraçılara tapşırıqlar verir, icra müddətinin və nəzarətin vaxtaşırlığını müəyyən edir;
- tabelikdəkilərin təlimatlandırılmasını və təlimini təşkil edir;
- əməliyyat müşavirələri keçirir;
- icraçılara lazımi iş şəraiti yaradır və təşkilati-inspektor xidməti vasitəsilə qərarların həyata keçirilməsinə nəzarəti təmin edir;
- qərarların icrasına hazırlıq üçün vaxtı, həmçinin qəbul olunmuş qərarların icrası haqqında informasiya verilməsi qaydalarını və həcmini müəyyən edir.

**Qarşılıqlı əlaqə.**

Qarşılıqlı əlaqənin təşkilinə aşağıdakılar daxildir:
- qarşılıqlı əlaqə formalarının müəyyənləşdirilməsi;
- digər polis orqanları, eləcə də cinayətkarlığa qarşı mübarizə aparan dövlət orqanları ilə, həmçinin idarə, müəssisə, təşkilat, ictimai birliklər, xeyriyyəçilik fondları, dini konfessiyaların, kütləvi informasiya vasitələrinin rəhbərləri ilə hüquqpozmaların profilaktikası üzrə qarşılıqlı fəaliyyətin müəyyən edilməsi;
- xidmətlərin qarşılıqlı fəaliyyətinin vəziyyətinə nəzarət edilməsi;
- qarşılıqlı rabitə işinin təşkili.

Polis orqanının cinayətkarlığa qarşı mübarizə aparan digər hüquq-mühafizə orqanları və dövlət qurumları ilə qarşılıqlı əlaqələri aşağıdakı qaydada həyata keçirilir:
- polis orqanının xidməti ərazisində hüquq qaydasının təmini və cinayətkarlığa qarşı mübarizənin vəziyyətinin öyrənilməsi;
- şəhərlərin, rayonların və ayrı-ayrı yaşayış məntəqələrinin ərazisində cinayətkarlığa qarşı mübarizə və ictimai təhlükəsizliyin, eləcə də vətəndaşların hüquq və azadlıqlarının təmini üzrə birgə tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi;
- orqanlararası müşavirələrdə işin yekunlarının və razılaşdırılmış tədbirlərin yerinə yetirilməsi üzrə nəticələrin müzakirəsi;
- avtomatlaşdırılmış informasiya sistemlərindən (informasiyaların mühafizəsi üzrə tədbirlər nəzərə alınmaqla) istifadə etməklə hüquqpozmaların törədilməsinə şərait yaradan hallar və onların aradan qaldırılması haqqında məlumat mübadiləsi.

**Qüvvə və vasitələrin yerləşdirilməsi.**

Qüvvə və vasitələrin səmərəli yerləşdirilməsi aşağıdakı prinsiplər üzrə həyata keçirilir:

- cinayətlərin, yaxud digər xətaların daha çox qeydə alındığı xidməti ərazidə və həmin halların baş vermə vaxtında;
- qüvvə və vasitələrin yenidən qruplaşdırılması, manevr edilməsi, habelə əməliyyat şəraitinin mürəkkəbləşdiyi zaman onların idarə olunmasına nəzarətin gücləndirilməsi;
- polis orqanının maraqlı orqan və təşkilatlarla, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsində iştirak edən digər qüvvələrlə qarşılıqlı fəaliyyəti;
- qüvvə və vasitələrin sabit əlaqəsinin təşkili;
- əməliyyat-kriminalistik texnikanın və rabitə vasitələrinin səmərəli tətbiqi.

**Uçot-qeydiyyat işinin təşkili.**

Polis orqanlarında uçot-qeydiyyat işi aşağıdakı sahələri əhatə edir:

- cinayətlər barədə daxil olan ərizə və məlumatların uçotu, onlar üzrə CPM ilə müəyyən edilmiş müddətlərdə və qaydada müvafiq prosessual qərarların qəbul edilməsi;
- cinayət işlərinin sadələşdirilmiş icraat materiallarının, cinayət işinin başlanmasının rədd edilməsi barədə qəbul olunmuş qərarlar üzrə materialların, eləcə də cinayət işləri və materiallar üzrə hüquqpozmalar törətmiş şəxslərin uçotu;
- qeydiyyata alınmış cinayət hadisələrinə dair müvafiq statistik göstəricilərin aidiyyəti üzrə yuxarı polis orqanlarının statistika aparatları, BƏSİİ-nin uçotları ilə uzlaşdırılması;
- əməliyyat xarakterli məlumatlar əsasında ilkin əməliyyat yoxlama və əməliyyat işlərinin uçotu;
- axtarışda olan, xəbərsiz itkin düşmüş şəxslər, şəxsiyyəti müəyyən edilməmiş meyitlərin uçotu.

**Nəzarət.**

Rəis şəxsən və təşkilati-inspektor xidməti vasitəsi ilə orqanda əməliyyat xidməti fəaliyyətə nəzarət sistemini işləyib hazırlayır, icra və uçot-qeydiyyat intizamının vəziyyətini təhlil edir, onun möhkəmləndirilməsi üzrə tədbirlər həyata keçirir. Bilavasitə aşağıdakı məsələlərə nəzarət edir:

- Azərbaycan Respublikası qanunvericiliyinin, DİN-in və bilavasitə tabe olduğu yuxarı polis orqanlarının normativ aktlarının, yerli icra hakimiyyəti və özünüidarə orqanlarının, ümumiyyətlə polis orqanlarının fəaliyyətinə aid qərarların icrasına;
- cinayətlər haqqında ərizələrin, məlumatların və digər informasiyaların qeydiyyatı, uçotu və onlara dair müvafiq qərarların icrasına.

Rəis nəzarəti işinin həyata keçirilməsi üzrə vəzifələri rəis müavinləri xidmət rəhbərləri arasında bölür.

Nəzarətə götürülmüş qərarları, habelə onlara nəzarətin üsul və formalarını müəyyən edir.

Əsas nəzarət funksiyalarını təşkilati-inspektor xidmətinə həvalə edir.

Qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi.

Rəis və onun müavinləri öz səlahiyyətləri daxilində ölkənin və xarici dövlətlərin polis orqanlarının qabaqcıl təcrübəsinin ümumiləşdirilməsi və tətbiqi, əməliyyat-xidməti və idarəçilik fəaliyyətində yeni mütərəqqi forma və üsullardan səmərəli istifadə olunması üzrə aşağıdakıları həyata keçirirlər:

- orqanın və onun ayrı-ayrı xidmətlərinin qabaqcıl iş təcrübəsinin digər polis orqanlarında yayılması üçün müvafiq icmalın DİN-in Baş-Təşkilati-İnspektor İdarəsinə göndərilməsi;
- digər polis orqanının qabaqcıl iş təcrübəsinin praktiki fəaliyyətdə tətbiqinin təmin olunması.

**Polis orqanının fəaliyyətinin əsas istiqamətləri üzrə işin təşkili.**

**Növbətçi hissədə cinayətlər və xətalar haqqında müraciətlərin, ərizə və məlumatların qeydiyyatı, şəxslərin polisə gətirilmə əsaslarının araşdırılması, saxlanılanların mühafizəsi.**

Bu xidmət sahəsinin fəaliyyətinin təşkili və işin nəticələri üzrə şəxsi məsuliyyət daşıyan polis orqanının rəisi müvafiq əmr və təlimatların tələbləri nəzərə alınmaqla növbətçi hissənin fəaliyyətini aşağıdakı istiqamətlər üzrə təşkil edir:

- növbətçi heyətin müəyyən edilmiş qaydada növbəni qəbul edib, təhvil verməsi;
- əməliyyat şəraitinə dair məlumatların fasiləsiz olaraq gün ərzində toplanılması və sistemləşdirilməsi, müəyyən edilmiş qaydada tabelik üzrə yuxarı polis orqanına və DİN-ə çatdırılması;
- əməliyyat şəraiti haqqında informasiyaların vaxtında və tam qeydiyyatdan keçirilməsi, asayişin və ictimai qaydanın, vətəndaşların hüquq və azadlıqlarının pozulması haqqında məlumatlara dərhal reaksiya verilməsi və adekvat tədbirlərin görülməsi;
- “102” və Təhlükəsiz Şəhər xidmətlərindən daxil olmuş məlumatlar üzrə dərhal zəruri operativ tədbirlərin görülməsi;
- rəhbərliyin, şəxsi heyətin, müəyyən edilmiş hallarda isə tabelik üzrə yuxarı instansiyaların, yerli hakimiyyət, özünüidarə və digər hüquq-mühafizə orqanları rəhbərlərinin təxirə salınmadan xəbərdar olunması;
- asayişin, ictimai təhlükəsizliyin, vətəndaşların hüquq və azadlıqlarının, mənafelərinin, həyat və sağlamlıqlarının mühafizəsində iştirak edən qüvvə və vasitələrin fasiləsiz idarə edilməsi, cinayətlərin “isti izlərlə” açılması üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi.

**Cinayətlərin profilaktikası və açılması.**

Cinayət törətmiş, xəbərsiz itkin düşən şəxslərin axtarışı.

Orqanın rəisi və onun müavinləri öz səlahiyyətləri daxilində aşağıdakıları həyata keçirirlər:

- orqanın xidmət göstərdiyi ərazidə əməliyyat şəraitinin öyrənilməsi, təhlili və proqnozlaşdırılması əsasında, cinayətlərin qarşısının alınması və açılması,

hüquq qaydasının təmini üçün qabaqlayıcı-profilaktik və çevik əməliyyat tədbirlərinin görülməsini, bu məqsədlə şəxsi heyətin səfərbər olunmasını;

- növbətçi hissəyə cinayətlər haqqında ərizə, məlumat və digər informasiyalar daxil olduqda növbətçi tərəfindən görülmüş tədbirlərin (hadisə yerinin mühafizəsinin təşkili, istintaq-əməliyyat qrupunun, yaxud aidiyyəti ərazi və obyektlərə xidmət göstərən əməkdaşların hadisə yerinə getməsi digər qüvvələrin cəlb edilməsi, şəxsi heyətə məlumat verilməsi və s.) nəticələrinin qiymətləndirilməsini, onlara düzəlişlər edilməsini, əlavə lazımi göstərişlər verilməsini. Ağır və xüsusilə ağır cinayətlərin qarşısının alınması üzrə müvafiq xüsusi planların tətbiqi barədə qərar qəbul edilməsini;

- baş verən xüsusilə ağır, ağır və digər cinayətlərin xarakterindən və törədilmə şəraitindən asılı olaraq rəisin şəxsən hadisə yerinə gedərək cinayət törətmiş şəxslərin hərəkət edə biləcəyi yollara sipərlər qoyulmasını, həmçinin onların müəyyən edilməsi və tutulması üçün digər əməliyyat-axtarış tədbirlərinin görülməsini;

- həyata keçirilən tədbirlərin tələb olunan qüvvə və vasitələrlə təmin edilməsini, zəruri hallarda qonşu ərazilərin polis orqanları ilə qarşılıqlı əlaqələrin yaradılmasını, törədilmiş cinayətlər və şübhəli şəxslər haqqında onlara məlumat verilməsini;

- sonradan gündəlik olaraq axtarış xarakterli lazımi göstərişlər və tapşırıqlar verilməsini, cinayətin açılması işinin gedişinə nəzarəti, tabelikdə olan xidmət və hissələrə nəzarətin müddət və formalarının müəyyənləşdirilməsini.

**Narkotik vasitələrin, psixotrop maddələrin və onların maddələrin və onların prekusorlarının qanunsuz dövriyyəsi ilə mübarizə üzrə görülən tədbirlər.**

Orqanın rəisi və onun əməliyyat işi üzrə müavini xidməti ərazidə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekusorlarının dövriyyəsinə nəzarət üzrə qanunvericiliyin tələblərinə riayət olunmasını təmin edirlər.

Bu məqsədlə:

Orqanın xidməti ərazisində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekusorlarının qanunsuz dövriyyəsi ilə mübarizə xətti üzrə yaranmış əməliyyat şəraiti öyrənilir, təhlil edilir, qiymətləndirilir və proqnozlaşdırılır.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekusorlarının qanunsuz dövriyyəsinə və onlardan sui-istifadəyə imkan yaradan səbəb və şərait öyrənilir. Narkotiklərlə bağlı baş vermiş hüquqpozmaların ümumi və fərdi profilaktikasının işlənib hazırlanması və icrası təşkil edilir.

**Cinayətlərin qarşısının alınması və açılmasında kriminalistik vasitələrdən və üsullardan istifadə olunması.**

Polis orqanının rəisi, yaxud əməliyyat işi üzrə müavini və səlahiyyətləri daxilində cinayətlərin aşkarı, qarşısının alınması, açılması və istintaqı üçün kriminalistik vasitələrdən və üsullardan istifadə olunmasını təklif edir və aşağıdakı tədbirləri həyata keçirirlər:

- kriminalistik vasitələrdən və üsullardan istifadə edilməsi vəziyyətinin təhlili, cinayətkarlığa qarşı mübarizədə onların səmərəli tətbiqi üzrə tədbirlərin işlənib hazırlanmasını;

- Respublika üzrə kriminalistik uçot məlumatlarından, müvafiq avtomatlaşdırılmış informasiya banklarının imkanlarından, DİN-in Kriminalistik Tədqiqatlar İdarəsinin müvafiq kartoteka və kolleksiyalarından cinayətlərin aşkar edilməsində, açılmasında və istintaqında istifadə olunmasını.

**Post-patrul xidmətinin aparılması.**

Orqanın rəisi və ya onun xidmət üzrə müavini – xidməti ərazidə, şəhərdə, rayonda, digər yaşayış məntəqələrində və küçələrdə, habelə başqa ictimai yerlərdə, nəqliyyat obyektlərində vətəndaşların şəxsi təhlükəsizliyinin, onların hüquq və azadlıqlarının, hüquq qaydasının mühafizəsinin, habelə cinayətlərin və inzibati xətaların qarşısının alınmasının təmin olunması üçün polisin qüvvə və vasitələrindən istifadə edilməsi məqsədi ilə kompleks tədbirlər işləyib hazırlayır, post-patrul naryadlarının işinə rəhbərlik edir, tabelikdəki orqanın post-patrul xidmətinin həm adi şəraitdə, həm də fövqəladə hadisələr zamanı keyfiyyətli təşkilinə və onun nəticələrinə görə şəxsən məsuliyyət daşıyır.

**Polis sahə rəislərinin və polis sahə inspektorlarının işinin təşkili.**

Orqanın rəisi və onun xidmət üzrə müavini öz səlahiyyətləri daxilində polis sahə rəislərinin və polis sahə inspektorlarının işinin təşkili ilə əlaqədar aşağıdakı tədbirləri həyata keçirirlər:

- vətəndaşların şəxsi təhlükəsizliyi və asayiş üçün təhlükə yaradan hadisələr, inzibati xətalar və cinayətlər barədə məlumatların və vətəndaşların müraciətlərinin qəbulunu, onların vaxtında növbətçi hissəyə çatdırılmasını və qanuni tədbirlər görülməsini.

- vətəndaşların hüquqlarının, qanuni mənafelərinin, habelə onların həyatının, səhhətinin, əmlakının cinayətkar və digər hüquqazidd qəsdlərdən müdafiəsini.

- cinayətlərin və digər hüquqazidd əməllərin qarşısının alınmasını və açılmasını.

**Polis orqanlarının müvəqqəti saxlama yerləri.**

Orqan rəisi və onun xidmət üzrə müavini (ictimai təhlükəsizlik şöbə və bölmə rəisi) tabelikdəki müvəqqəti saxlama yerlərinin işinin təşkilinə görə şəxsən məsuliyyət daşıyırlar və öz səlahiyyətləri daxilində aşağıdakıları təmin edirlər:

- inzibati qaydada həbs olunmuş şəxslərin vaxtında qəbulu, saxlanması, mühafizəsi və əməyə cəlb olunmaları, habelə onların saxlanmasına və qidalanmasına sərf edilmiş vəsaitlərin tutulmasını.

- inzibati qaydada həbs edilmiş şəxslərin saxlanılma şəraitinin və qanuniliyinin yoxlanılmasını.

**Xüsusi icazə (lisenziya) fəaliyyəti.**

Rəis və onun xidmət üzrə müavini polis orqanının səlahiyyətinə aid edilmiş xüsusi icazə (lisenziya) işini təmin edərkən öz səlahiyyətləri daxilində aşağıdakı tədbirlərin görülməsini təşkil edirlər:

- silahların satılması və alınması zamanı qanunvericilik və normativ aktların tələblərinin təmin olunmasını.

Silah dövriyyəsi ilə əlaqədar olan məsələlər üzrə:

- yivli və yivsiz lüləli xidməti və mülki silahın qeydiyyata alınması, uçotu, dövriyyəsinə nəzarətin həyata keçirilməsi;
- qeydiyyatda olan yivsiz lüləli xidməti və mülki silahın alınmasına xüsusi icazələrin, saxlanılmasına və təyinatı üzrə istifadə edilməsinə şəhadətnamələrin verilməsi;
- xidməti və mülki silahların saxlanıldığı yerlərə baxış keçirilməsi;
- xüsusi icazə verilən şəxslərin məhkumluğunun, polisdə uçota götürülüb-götürülməməsinin, barələrində təqsirləndirici materialın, habelə ruhi xəstəliyə, alkoqolizmə, narkomanlığa düçar olub-olmamasının yoxlanılması;
- icazə sistemi qaydalarının pozulmasına qarşı yönəldilmiş profilaktik tədbirlərin görülməsi;
- müəyyən edilmiş qaydaları pozmuş şəxslər barəsində qanunvericiliyə uyğun tədbirlərin görülməsi.

**Yol hərəkəti təhlükəsizliyinin təmini işinin təşkili.**

Xidməti ərazidə müəssisələr, idarələr, təşkilatlar (mülkiyyət formasından asılı olmayaraq), ictimai birliklər, vəzifəli şəxslər və vətəndaşlar tərəfindən yol hərəkəti təhlükəsizliyi sahəsindəki qaydalara, normativlərə və standartlara riayət olunmasına dövlət nəzarətini təmin etmək məqsədilə polis orqanının rəisi və onun xidmət üzrə müavini öz səlahiyyətləri daxilində:

Dövlət yol polisi qurumlarına həvalə olunmuş vəzifələrin yerinə yetirilməsini təşkil edir və bu işə nəzarəti həyata keçirirlər.

Yol hərəkəti qaydalarının pozulması və avtomotonəqliyyat vasitələrindən hüquqazidd məqsədlərlə istifadə olunması hallarının qarşısının alınması üzrə tədbirlərin keçirilməsini, xidməti ərazidə nəqliyyatın və piyadaların təhlükəsiz və rahat hərəkətini, qanunla müəyyən olunmuş hallarda nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılmasını və ya qadağan edilməsini, sərnişin daşınmasında istifadə olunan nəqliyyatın müntəzəm hərəkət marşrutlarının açılmasına razılıq verilməsini təşkil edirlər.

**Cinayətlərin istintaqı.**

Polis orqanının istintaq aparatının rəhbəri:

Törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatların aidiyyəti üzrə qeydə alınmasını təşkil edir, onlara baxılmasını, cinayət işi üzrə ibtidai istintaqın, ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasını müstəntiqə tapşırır.

Səlahiyyətləri daxilində cinayət-prosessual qanunvericiliyinə müvafiq olaraq müstəntiqlər tərəfindən cinayət işlərinin vaxtında və keyfiyyətli ibtidai istintaqını təşkil edir.

Cinayət işlərinin ibtidai istintaqının vəziyyətini və nəticələrini təhlil edir. İbtidai istintaqın təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi sahəsində tədbirlər hazırlayıb həyata keçirir.

Zəruri hallarda cinayət işləri üzrə istintaq qrupu yaradır.

**Təhqiqatın təşkili.**

Polis orqanının rəisi:

Təhqiqat orqanının rəhbəri kimi Cinayət-Prosessual Məcəlləsinin tələblərinə əməl edərək öz səlahiyyətləri daxilində:

Törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatların qeydiyyata alınmasını təşkil edir, onlara baxılmasını, cinayət işi üzrə təhqiqatın və ya ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasını, təhqiqatçıya, yaxud təhqiqatçılar qrupuna tapşırır.

Prokurorun, müstəntiqin və ya təhqiqatçının göstərişlərinin və qərarlarının icrası üçün müvafiq tədbirlər görülməsini təşkil edir.

**Yaşayış və olduğu yer üzrə qeydiyyat qaydalarının və əcnəbilərin ölkədə hüquqi vəziyyətinin təmin olunması.**

Rəis və onun müavinləri öz səlahiyyətləri daxilində yaşayış və olduğu yer üzrə qeydiyyat qaydalarının, həmçinin ölkədə müvəqqəti olan əcnəbilərin olduğu yer üzrə qeydiyyatının təmini üzrə işi təşkil edirlər.

Bu məqsədlə:

Respublika vətəndaşlarına şəxsiyyət vəsiqələrinin verilməsini, dəyişdirilməsini, həmçinin qeydiyyata alma və qeydiyyatdan çıxarılma məsələlərinin həllini təmin edirlər.

Qeydiyyat xidmətinin iş forması və üsullarının təkmilləşdirilməsi üçün lazımi tədbirlər həyata keçirirlər.

Şəxsiyyəti təsdiq edən sənədlərin verilməsi haqqında vətəndaşların ərizələrini, idarə, müəssisə və təşkilatların vəsatətlərinin qəbulunu və baxılmasını təmin edirlər.

**Mühazirəmizin üçüncü sualının açıqlanmasını yekunlaşdıraraq qeyd etmək istərdim ki, polis orqanı işinin təşkili və onların istiqamətləri barəsində sizin diqqətinizə məlumatlar catdırıldı.**

**Sual 4. Polis orqanının fəaliyyətinin təminatı.**

**Polisin fəaliyyətində hüquqi təminatın təşkili.**

Polis orqanının fəaliyyətində hüquqi təminat işi aşağıdakı əsas tədbirləri əhatə edir:

- DİN-in normativ hüquqi aktlarına müvafiq olaraq orqanın fəaliyyət məsələləri üzrə normativ aktların işlənib hazırlanmasını;
- Polis orqanının fəaliyyətində qanunvericilik aktlarına və digər hüquq normalarına riayət olunmasının təmin edilməsinə yönələn tədbirlərin həyata keçirilməsini;
- inzibati təcrübənin, həmçinin orqanın fəaliyyətini tənzimləyən normativ aktların təkmilləşdirilməsi üzrə hüquqi və fiziki şəxslərdən daxil olan təkliflərin təhlilini və s.

**Kadrların seçilib yerləşdirilməsi və təlim-tərbiyə işi.**

Kadrların seçilməsi, yerləşdirilməsi və təlim-tərbiyə işinin təşkili üzrə aşağıdakılar təmin edilir:

Orqanda kadr işinin vəziyyətinin təhlili.

Tabelikdəki orqan və strukturların komplektləşdirilməsi, kadrların keyfiyyət tərkibinin yaxşılaşdırılması.

Xidmətkeçmə qaydalarının və şəraitinin təmin olunması.

Şəxsi heyətin təlim-tərbiyəsi işinin təşkili.

İntizamın və qanunçuluğun möhkəmləndirilməsi.

**Maliyyə-təsərrüfat və kargüzarlıq işinin təşkili.**

**Maliyyə-təsərrüfat fəaliyyətinin təşkili.**

Polis orqanı Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti, qanunla müəyyənləşdirilmiş qaydada bağlanmış müqavilələr əsasında daxil olan vəsait hesabına maliyyələşdirilir.

Polis orqanının rəisi həmin orqanın kredit sərəncamçısı olmaqla, qüvvədə olan qanunvericiliyə ciddi surətdə əməl etməlidir. Təsərrüfat müqavilələri, saziş və kontraktları imzalamaq kimi müstəsna hüquqa malikdir, maliyyə-təsərrüfat işlərini təşkil edir.

Bu məqsədlə:

Şəxsən maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir. Respublika büdcəsindən və müqavilələr əsasında daxil olmuş ümumi vəsait hesabına orqanın saxlanılması üzrə vəsaitin müəyyən edilmiş qaydada məsrəfini təşkil edir.

Orqanın fəaliyyəti üzrə lazımi maddi vəsaitlərin alınması üçün vaxtında tələbnamələr verilməsini və təsdiq edilmiş smeta-xərc maddələri üzrə xərclənməsini, bu vəsaitlərin uçotunun təşkilini, maliyyə-təsərrüfat fəaliyyəti üzrə hesabatların müəyyən edilmiş qaydada və müddətlərdə vaxtında təqdim olunmasını təmin edir.

Texniki vasitələrin, silah-sursatın istismarına və saxlanılmasına, nəqliyyata sərf olunan yanacaq-sürtkü materiallarına, əməliyyat-texniki vasitələrə və digər

əmlaklara vaxtında keyfiyyətli texniki xidmət göstərilməsinə və onların təmirinə, səmərəli istismarına, müvafiq sənədlərin aparılmasına nəzarəti həyata keçirən şəxsləri müəyyən edir.

**Texniki vasitələrdən istifadə olunması və onların saxlanılması.**

Orqanın rəisi və onun müavinləri cinayətkarlığa qarşı mübarizədə və ictimai asayişin mühafizəsində texniki vəsaitlərin bütün növlərindən fəal istifadə olunmasını təmin edir, kriminalistik laboratoriyanın, habelə rabitə üzrə mütəxəssislərin, bu sahəyə aid olan vəsaitlərin istismarı ilə əlaqədar struktur hissələrin bütün əməkdaşlarının işini təşkil edirlər.

Bu məqsədlə:

Növbətçi hissənin və digər xidmətlərin əməliyyat və kriminalistik texnika, rabitə, nəqliyyat vasitələri, eləcə də hadisə yerinə baxış və digər istintaq hərəkətlərinin icrası üçün zəruri olan başqa texniki vasitələrlə təchizini təmin edirlər.

Mövcud texniki vasitələrin uçotunu, saz vəziyyətdə saxlanılmasını, cinayətkarlığa qarşı mübarizədə və asayişin mühafizəsində onların qanunauyğun və səmərəli surətdə istifadə olunmasını və bu işə nəzarəti təşkil edirlər.

Müəyyən edilmiş qaydada əməliyyat texnikası mütəxəssislərin əməliyyat-axtarış tədbirlərinin və istintaq hərəkətlərinin keçirilməsində iştiraklarını təmin edirlər.

# N Ə T İ C Ə

"… Vaxtilə ölkəmizdə insanların həyatını təhlükəyə məruz qoyan hərc-mərclik, qanunsuz silahlı birləşmələrin mövcudluğu, əhalidə qanunsuz silahların cəmləşməsi, terrorçuluq və mütəşəkkil cinayətkarlığın tüğyan etməsi insan hüquq və azadlıqlarının kütləvi surətdə pozulmasına gətirib çıxartmışdı… Bu ağır sınaqlardan çıxmış Azərbaycan xalqı mətin iradə, həmrəylik və əzmkarlıq nümayiş etdirərək, bəşər sivilizasiyasının idealları olan azadlığı, ədaləti və sülhü özünün inkişaf yolu seçmişdir. Son illər ölkəmizdə insanların azad və təhlükəsiz yaşaması, müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində çox ciddi tədbirlər həyata keçirilmişdir". Bu sözlər "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanında göstərilmişdir.

Bu məqsədlə mövzunun əhəmiyyəti ondadır ki, DİN və şəhər, rayon polis orqanlarının funksiya və vəzifələri normativ-hüquqi aktlara əsasən həyata keçirilir.

Belə ki, **mövzunun birinci sualında** göstərdik ki, DİN qanunvericilik aktlarını rəhbər tutaraq respublikada ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində ona həvalə olunmuş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

**İkinci sualda** DİN-in vahid sisteminin tərkib hissəsi olan şəhər, rayon polis orqanının, onun hüquqi vəziyyəti, funksiya və vəzifələri, eləcə də polis orqanlarının rəhbərliyi arasında nümunəvi vəzifə bölgüsünü göstərdik.

**Ücüncu sualda** polis orqanlarının işinin təşkilinin əsasları göstərildi.

**Mühazirənizin dördünçü sualı** isə polis orqanının fəaliyyətində hüquqi təminat tədbirləri barəsində ətraflı qeyd olundu.

Ümumilikdə mövzu Sizin polis zabiti kimi formalaşmağınızda, DİN-in ali hüquq təhsilli əməkdaşı kimi fəaliyyətinizdə öz hüquqi əhəmiyyətini göstərəcəkdir.